# NƏ QƏDƏR Kİ AZƏRBAYCAN VAR, HEYDƏR ƏLİYEV İDEYALARI YAŞAYACAQ

**Heydər Əliyev xalqının firavan yaşamasına, millətin və vətəninin tərəqqisinə həsr olunan zəngin bir ömür yolu keçmişdir. Sözün əsl mənasında, o, özü üçün deyil, xalqı üçün yaşamış, bütün gücünü, zəhmətini, səyini və iradəsini bu müqəddəs amala sərf etmişdir.**

Ümummilli liderimizin həyatı, fəaliyyəti Azərbaycana xidmətinin parlaq nümunəsidir. Onun adı ilə bağlı hər şey qədirbilən xalqımız üçün olduqca əzizdir. Ümummilli liderin 35 illik fəaliyyətinin başlıca nəticəsi ən böyük şah əsəri olan müstəqil Azərbaycanı bizə yadigar qoymasıdır.

Həmin tarixi gündən, yəni bütün sahələrdəki inkişafının müasir, müstəqil dövlət kimi beynəlxalq səviyyədə öz layiqli yerini tutmasına gətirib çıxaran proseslərin əsasının qoyulduğu vaxtdan Azərbaycan böyük inkişafa nail oldu. 14 iyul 1969-cu ildə Azərbaycan KP MK-nın plenumunda Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçildi.

Bununla da, Azərbaycana keçmiş ittifaq rəhbərliyinin apardığı siyasəti davam etdirməyi, bütün fəaliyyəti ilə mərkəzi razı salmağa çalışan bir rəhbərin yox, bütün varlığı ilə xalqının milli-mənəvi dəyərlərinə bağlı olan, millətinin qeyrətli oğlu olduğunu əməli fəaliyyəti ilə sübut etməyə çalışan şəxsiyyətin rəhbərlik dövrü başladı. Təsadüfi deyil ki, bu qüdrətli şəxsiyyətin xalqının, millətinin, dövlətinin taleyində oynadığı müstəsna rolu nəzərə çarpdırmaq üçün onu Atatürklə, Çörçillə, Vaşinqtonla, Ruzveltlə müqayisə edirlər. Həmin şəxsiyyətlərin böyüklüyünü isə aydın görmək üçün ABŞ-ın, Böyük Britaniyanın, Türkiyənin ağrılı-acılı günlərini yada salmaq, bugünkü inkişaf səviyyəsinə nəzər yetirmək kifayətdir. Məhz həmin şəxsiyyətlərin öz ölkələrində hakimiyyətdə olduqları müddətdə gördükləri böyük işlər dövlətlərinin bütün sahələrdə, o cümlədən beynəlxalq məsələlərin həllində önəmli mövqe sahibi olmalarına gətirib çıxarmışdır.

Heydər Əliyevin ilk dəfə Azərbaycana rəhbərlik etməyə başladığı ərəfədə ölkənin hansı durumda olduğu yaxşı bəllidir. Azərbaycan keçmiş ittifaqa daxil olan respublikalar içərisində bütün göstəricilər üzrə sonuncu yeri tuturdu.

Azərbaycan öz tarixinin ən ağır dövrlərindən birini yaşayırdı. Respublikada sosial-iqtisadi vəziyyətin ağırlığına Ermənistanda azərbaycanlılara qarşı növbəti anti-azərbaycan kampaniyası da əlavə olunmuşdu.

Azərbaycanı dirçəltmək, bütün sahələrdə qabaqcıllar sırasına çıxarmaq Heydər Əliyevin taleyinə yazıldı. Yalnız böyük şəxsiyyətlərə məxsus olan keyfiyyətlərin Heydər Əliyevdə cəmləşməsinin nəticəsidir ki, çox qısa bir zaman kəsiyində Azərbaycan keçmiş ittifaqa daxil olan respublikaların həsəd apara biləcəyi tərəqqiyə nail oldu. Bu sıçrayış bütün sahələri əhatə etdi. Respublika iqtisadiyyatı gücləndi, əhalinin sosial vəziyyəti xeyli yaxşılaşdı, elmin, mədəniyyətin, ədəbiyyatın və incəsənətin inkişafına göstərilən diqqət və qayğı öz bəhrəsini verdi, Azərbaycanın dünya miqyasında tanınması prosesinin əsası qoyuldu. Heydər Əliyev həmin dövrün stereotipləri ilə uzlaşmayan bir yol seçdi.

Ulu öndər respublikamızı, sözün əsl mənasında, sürətli inkişaf mərhələsinə yüksəltdi. Biz fəxr edirik ki, bu gün Prezident İlham Əliyev Azərbaycanın xilaskar oğlu Heydər Əliyev siyasətini uğurla davam etdirir.

**Kərəm KƏRİMOV,**
**Bakı Elmi-Tədqiqat Göz Xəstəlikləri Klinikasının direktoru,**
**Əməkdar elm xadimi, professor.**